## Yədulla AĞAZADƏ - 70

# NİSAN YAĞIŞI

## və ya dəmirağacının qızılı rəngi



Bir - birimizə oxşar yaradıldıq, daşa, torpağa, suya bənzərliyimiz vardır. Ballı dərənin (Şonaçola) də seli, suyu gəlib Xəzər dənizinə yetişirmi? - Bilmirəm, amma təbiətdə heç nə itmir, maddənin itməməsi qanununa görə bir haldan digər hala keçir, səsimiz, sözümüz, əməllərimiz də eləcə...

Aşura gecəsi Ay qızarıb Kərbəla şəhidlərinin qan rənginə dönür.Yer kürəsi sevinc və kədərini, ağrı və acılarını qütblərdə eyforik həzz, eyforik iztirab yaşaya - yaşaya melanxolik mənzərələrlə üstündən atır.

Xalqımızın da birləşmək və bütövləşmək istəyi, elmi hünəri və yaşamaq eşqi Vətən və millət şəhidlərimizin, aparıcı və öncül dövlət xadimlərimizin, elm və təhsil fədailərimizin, sadə və hünərvər zəhmətkeş insanlarımızın əməllərində təcəlla tapır.

Ayaq izlərini özündə saxlayan bu torpağın daşları içində su gəzdirirlər. İnsanları - "Biz Allaha aidik və ona da qayıdacağıq!" - yəqinliyi ilə - uca Yaradana sevgi və inamlarında zənnə və gümana düşməyən, - "bu yetər ki, bilmək olmaz!"- məqamını Allahın - "Eşitdik və itaət etdik!" - hökmü ilə anlayar, bayrağının altında birləşər, - " Vətən müqəddəsdir!" - deyib, onun hər qarış torpağını göz bəbəyi tək qoruyarlar.

Dağlardan, nəhəng daşlardan ayrı düşən Dədə həm Xəzərə, həm də Lənkərançaya yaxın, deməli, quma və kiçik daşlara yaxın yerdə, yeni yurdda, yeni özül yaradırdı. Atamıza Dədə deyirdik. I qrup Böyük Vətən müharibəsi əlili, qazisi olan Dədə namazlarını ümumi qəbul olunmuş hərəkət qaydaları ilə qıla bilmədiyindən oturduğu halında qılırdı, biz də eşitdiyimiz "Allahu əkbər!" nidasının ab - havasında tərbiyələnirdik. Hər gün evimizdə Allahın adı çəkildiyindən evimiz məxsusu, hər gün üçün ayrıca olaraq NUR-a boyanırdı.

Dədə "Ata" mərhələsindən "Qorqud" mərtəbəsinə yüksələn çox nadir şəxsiyyətlərdən idi, Hamının, müxtəlif qütblü insanların bir - birilərini qəbul və "həzm" edə bilməyən kişilərin belə Atamızla görüşə can atdıqlarının şahidiyəm...

Mart ayının əvvəlləriydi, Yer çoxdan idi ki, Günəşə belə isti qucaq açmamışdı, evə işıq düşsün deyə pəncərəni tutan tül və saçaqlı pərdəni kənar etdim ağır-ağır xəstə yatan Dədə dirsəyi üstə qalxaraq həyətə baxdı:

-Kim bizim həyətdən yol çəkib?, - dedi...

Əslində yol kimi görünən özülü qoyulan, üzəri qum və sement qarışığı ilə şirələnən bizim yarımçıq qalmış ev bünövrəsinin üstü idi. Üzərinə Günəş şüaları düşdüyündən qara qum şirəsi parıldayırdı. Hər kəsin ya göydə, yaxud yerdə bir istinad nöqtəsi olur, o gündən bəri biz şirələnmiş qara qum dənəsiyik, üstümüzə Günəş düşdükcə parıldayırıq!....

Həyət qapımızdan açılan mənzərə Talış dağlarınaydı. Dağlar ağappaq libasında öz təntənəsindəydi, görüntü baxımından, sanki yerlə göy orada birləşmişdi, ora ya dünyanın axırı, ya da cənnətin başlanğıcıydı, orada ağappaq bir ölüm, ya da intəhasız və nəhayətsiz bir həyat vardı. Buludlar üzərindəki bu əsrarəngiz əzəmətin sanki insanı özünəçəkib aparmaq kimi bir ovsunluğu olur və indi də eləydi, möhtəşəm paklıq atamızı götürüb aparırdı...

...Anamın namazlarından, illah da sübh çağı namazında eşitdiyim "Sübhanallah" kəlməsi məndə elə təəssürat yaradırdı ki, elə bil evimizə ruzi, bərəkət daxil olur. Sübhanallah kəlməsinin yaratdığı arxayınlıq hissi mənim yorğanı üstümə daha bərk sıxıb, daha möhkəm yatmağıma səbəb olurdu.

Bilsək də, bilməsək də dünya bütün uşaqlar üçün nağıl kimi başlayır. Təkid edərdik və anam bizə nağıl danışardı. İstəsək də, istəməsək də sonunda həmişə göydən üç alma düşərdi. - "İstəmirəm" - deyənlərdən olsaq da, o almalarda bizim də payımız vardı.

Kəbə formalı evimizdə Allahın adı çəkilirdi və biz bu NUR-a boyanırdıq.

İndi bəzi uşaqlara "ana uşağı" deyirlər, belə çıxır ki, biz də uşaqlıqda "innə uşağı" olmuşuq. Anamıza yerli ləhcə ilə "innə" deyirdik. "İnnə" kəlməsində Talış dilinin ilıq və isti nəfəsi yaşayır. Dövranın sərt üzü anamızın bizə səsləniş tərzini dəyişmişdi, köksümüzdə arxayınlıq yaradan; -"Yədi bala, İlti bala, Əli bala" deyimləini indi çiyinlərimizə daha ciddi məsuliyyət yükləyən; - "İgidim, hə qoçağım, haydı qoçum"la əvəzləmişdi.

Əlhəmdulillah, Allahın əli üstümüzdə idi. "Ev içi eşq ilə dolurdu" (Y.Əmrə), pərişanlığımızı ortadan götürən, eşqin taxtında əyləşən Süleymanımız; - Yədu-l- lah (Allahın əli), Yədulla Ağazadə Azərbaycan Dövlət Universitetinin tələbəsi idi. O, Allahdan sonra birinci adamdır ki, bacı - qardaş arasında onun adına verdiyimiz andın nə qədər ciddi olduğunun fərqindəydik, bu hal evimizin yazılmayan dil qanunlarından idi. Qardaşım Yədulla müəllimin hünər yolu, əsl örnək yolu idi; - (müəllim, maarifçi, tənqidçi, ədəbiyyatşünas, yazıçı, folklorşünas araşdırmaçı tədqiqatçı alim, böyük həflərlə İNSAN, el ağsaqqalı, kitab dostu və s.) ...Çox şeydən çətinliyimiz olub, sadalamağa dəyməz, bircə kitabdan savayı. Homeri, Danteni, Şekspiri, Covanyolini, Balzakı, Hüqonu, Drayzeri, C.Londonu, M. Ridi, Dümanı , Geteni, L.Tolstoyu, Dostayevskini və s. həm də demək olar ki, dahi Nizamidən tutmuş M.İbrahimə (M.Araza) qədər bütün klassik və çağdaş dövr ədəbiyyatımızı onun aldığı kitablardan öyrənmişəm. Mənə kitabı o, sevdirib. Başımızın üstündə kitab idi, çünki evdə yer olmadığından anam o kitabları dama qaldırmışdı. Dama biz qış zamanı olsun deyə əzgil, alça da sərərdik, İltifat qardaşımdan fərqli olaraq mən həm də dama kitab oxumağa qalxardım. Məni və digərlərini Yədulla müəllimlə bağlayan bütün yolların başında kitab var. Onun öz "imperyası" vardı. O, bu "imperiyasını" hələ məktəb illərindən bir sıravi əsgər kimi qurmağa başlamışdı. Roma imperiyasının gücünü , mükəmməlliyini və möhtəşəmliyini ifadə edən məşhur "Bütün yollar Romaya aparır" məsəli, eyni zamanda qardaşım Y.Ağazadənin qurduğu "kitab imperiya"sını da çox gözəl ehtiva edir. Yədulla müəllimlə, Yədulla qardaşımla bağlı bütün yollar insanı kitaba aparır. Onun kitaba olan sevgisini müəllimlər mənə nümunə göstərərdilər. İndi o, elmin ən üstün qatında, necə deyərlər, "kitab imperiyası"nın qüdrətli generalı və sərkərdəsi mərtəbəsindədir. O, Tanrıdan razıdır, Tanrı da ondan razı olsun! (Bu, anamın dualarındandır). O, Allahdan sonra birinci adamdır ki, "Oxu" sözünü məhəlləyə, məktəbə, qohuma, qonşuya, bir sözlə, bütün onu tanıyanların dilinə salıb, hamı onun oxumağından danışsa da. danışmaq, mənim həddimdə deyil... Onun haqqında danışmaq istəyəndə gərək əvvəlcə sözün kökü olan Haqqdan danışasan. Təkcə elə maarifçi müəllim, folklorşünas , tədqiqatçı alim T. Bayraməlibəyovun elmi fəaliyyətindən bəhs edən "Teymur bəy Bayraməlibəyov və folklor" kitabı Yədulla müəllimin bir alim olaraq öz yurdu, öz xalqı qarşısında misilsiz xidməti üçün yetərli olardı. Teymur bəy Bayraməlibəyovun folklorşünaslıq irsinə, xüsusən onun "Lənkəran keçmişdə" etnoqrafik əsərinə Y.Ağazadənin münasibəti onun əsl vətəndaş - alim mövqeyindən irəli gəlir. Bütün sahələrdə vacib olan bu yanaşma tərzi elmimizdə də çox lazımdır, çünki vətəndaş - müəllimin, vətəndaş - alimin arxasında minlərlə şagird və tələbə ordusu dayanır.

Y.Ağazadə yazır; "T.Bayraməlibəyov avamlığı, cəhaləti, nadanlığı bütün yaradıcı ömrü boyu tənqid etmiş, xalqı maarifə, təhsilə, mədəniyyətə çağırmış, şəxsi nümunə göstərmişdir. Onun ürək ağrısı, milli təəssüb, vətəndaşlıq qeyrəti və yanğısı ilə qələmə aldığı, nəşr olunmayıb müxtəlif elmi arxivlərdə əlyazma şəklində saxlanılan... müxtəlif mətbuat orqanlarının səhifələrində, xüsusən "Kaspi"də başqa adlar altında çap etdirdiyi məqalələr də diqqəti cəlb edir."

Millət üçün hər ötən gün bir tarix olaraq onun kimliyini formalaşdırır. Bu gündən keçmişinə güvəni olsun deyə bu ölkənin hər hansı bir vətəndaşı T. Bayraməlibəyovun "Lənkəran keçmişdə" əsərini oxusa, bəri başdan deyim ki, o, ən azı iki üstünlük qazanır; xalqını və üstündə yaşadığı torpağı öyrənir və xeyirin şər üzərində qələbəsinə əmin olur.

Y. Ağazadə daha sonra yazır; "T. Bayraməlibəyovun folklor irsi zəngin bir xəzinədir. Elə bir xəzinədir ki, illər ötsə də öz dəyərini itirmir, daha artıq dərəcədə əhəmiyyət kəsb edir. Folklorşünaslıq elmimizin şərəfli vəzifələrindən biri də bu zəngin mənəvi sərvəti bütün aydınlığı ilə üzə çıxartmaqdan ibarət olmalıdır".

"...Min dağı bir dırnaq ilən" (Füzuli) qoparıb atan, davranışı danışığının davamı kimi, yəni sözü ilə əməli üst-üstə düşən, ziyalılığına zəhmətsevərliyi daim yenilik və təravət gətirən, həm də mənə dost, ata əvəzi olan alim qardaşım Yədulla müəllim, Sizin T.Bayraməlibəyov irsinə münasibətiniz Nisan yağışının sədəfə olan nisbəti kimidir. Lənkərana yağan yağışları çeşidləmək olar: - Toz yağışı, çiskin, nur yağış, çobanaldadan yağış, şırhaşır, selləmə, leysan, səpmə yağış, ildırımlı - gurultulu çaxma yağış, tut ucundan göyə çıx və ən əsası da Nisan yağışı. Yağış var ziyanlı olur, yağış var ziyansız, lakin yağıntılar öz mahiyyəti etibarı ilə həmişə həyatverici, canverici olurlar. Bu, Nisan - Aprel yağışında islananların qanında dəmirin miqdarı artır, normallaşır və qışdan çıxan zəifləmişlər üçün həyati əhəmiyyət daşıyır, insanda qızıl qan yaradan təbiətin bizlərə bir lütfi olur. Vətəni Lənkəran sayılan Dəmirağacı yarpaqlarının rənginə oxşar dünyada agac yarpağı çoxdur, ancaq tərkibi həmən deyil, necə ki, çayımız belə ətirli, sitrus meyvələrimiz belə dadlıdır. İnsanlarına bənzəyən, üzərinə Nisan yağışlarından bolluca "dəmir" yağan bu agacı uzaqgörən dədə - babalarımız onun yarpaqlarının "qızıl"ı rənginə baxıb, adını "Dəmir agacı" qoymuşlar, bu qədər "qızıl"ın içində "dəmir"i görmələri, əslində, özü bir möcüzəvi müdriklikdir. Tibbin bizə bu gün öyrətdiklərini dədələrimiz əsrlər öncə söyləmişlər. Dəmirin qızılla müqayisədə insanlara faydalılığını Həzrəti Əliyə (ə) verilən - "Səxavət üstündür, yoxsa ədalət? - sualını cavablandırarkən söylədiyi; - Ədalət hər şeyi öz yerinə qoyur, səxavət isə işləri öz məcrasından çıxarır. Səxavət bir neçə nəfərin, ədalət isə hamının qayğısına qalır! - sözlərinə dayanaraq söyləyirəm; - Səxavət (qızıl) barədə çətinliyimiz olub, ədalət (dəmir) isə daima yanımızda olub, əlimizdən tutub. Dəmirağacı yeganə agac olaraq o qədər dəmirdir ki, onu zərbədən yıxılan görməzsən, həm də o qədər qızıldır ki, onu hər cür gözdən, nəzərdən qorumaq istəyərsən. Səxavəti ədalətinə mütənasib gələn əziz Yədulla müəllim-,əziz qardaşım, Siz bu xeyirxah işinizlə ilkə imza ataraq insanların qəlbinə yağan və orada "gövhər" yaradan Nisan yağışına bənzəyirsiniz. Dahi Füzulinin qəzəl - mesajından faydalanıram;- "Sədəf su almayınca əbri - Nisandan gühər verməz". Sizə qulaq verənin əvvəl qulağı, sonra könlü sevinər.

*(Davamı 5-ci səhifədə)*

*(Əvvəli 4-cü səhifədə)*

# NİSAN YAĞIŞI

## və ya dəmirağacının qızılı rəngi

Lənkəranın rəngini məndən soruşsalar Sizi nişan verərdim. Siz Dəmirağacının qızılı rəngini; - Lənkəranı və Özünüzü - illərdir ki, minlərlə şagird və tələbə sevgisini qazana - qazana könüllərə, Azərbaycana sevdirirsiniz. Lənkəran Dövlət Universiteti (LDU) elə bütün Azərbaycan deməkdir. Siz insanların həm də düşüncə tərzindəsiniz, dərs dediklərinizin hər birində sizin danışıq və ya hərəkət maneranızdan, ədəbiyyata və həyata baxışınızdan az və ya çox dərəcədə nə isə vardır. Bu, bütövlükdə xalqımızın xeyrinədir, çünki xeyir əməl sahiblərinin sayı artır. Hər kimsədən soruşulacaq; - Qazandığın nədir? T.Bayraməlibəyovun folklor irsinə münasibətdə söylədiklərinizi eynilə Sizin öz ünvanınıza deyirəm; - Sizin pedaqoji, maarifçi və elmi fəaliyyətiniz zəngin bir xəzinədir. Ali, yüksək mədəni əxlaqınız (insanlıq ləyaqətiniz), elmi-pedaqoji fəaliyyətiniz (dərslik və dərs vəsaitləriniz) və zəngin mənəvi sərvətınız (kitablarınız) bizlərə bir nümunədir. Qardaşın olduğumu bilənlər, fərq etməz Bakıda, ya Lənkəranda; - "Yədulla müəllim mənim müəllimim olub", "Sən Yədulla müəllimin qardaşısan?", "Televizorda danışırdı, müəllimi gördüm", "Yədulla müəllim mənim ən çox sevdiyim müəllimdir", "Yədulla müəllimlə qarşılaşdıq, salam verdim" - və s... kimi haqqında olan xoş sözləri mənə də deyirlər.

Qori müəllimlər seminariyasının ilk üç azərbaycanlısından biri T.Bayraməlibəyov irsinə münasibətdə ilk AYDIN-lardan olan tədqiqatçı, folklorşünas alim əziz Y.Ağazadə, Sizin xalq üçün fədakar xidmətləriniz Teymur bəyin bu yoldakı fəaliyyətindən heç də az əhəmiyyətli deyil. Ən adi oxucu belə daxil, günbəgün artan xeyir əməl sahiblərini yazdığınız kitabla öz sıranıza qoşursunuz, oxumaq da elə xeyir əməllərdəndir. Bizə verilən mesajdır; - Xeyir işə təhrik edənə xeyir işi görən qədər savab yazılır. Siz həyatın hər üzünə xeyirxahsınız, qarı, yağışı, daşqını əskik olmayan bu dünyada, sözsüz ki, kömək, yardım istəyənlər də az deyil. Adam var, baxırsan, sanki bir adamdı, " seyli - tən öylə təməvvüclə alıb dövrü - bərim də (M. Ə.Sabir) də deyilsən, heç boğulmursan da, amma özünə yaxın bilib əl atıb tutmaq istədiyin zaman saman çöpü çıxır, belələri ələ yapışanlardı, əldən yapışdıqlarını görən olmayıb, nə adamlığında bir kəramət, nə alimliyində bir feyz görməzsən, cılız xislətlidirlər. İstedada daş atanın yanında belələri fürsət bilib pusquda durub, qılınc çəkər.

Sizə aid etdiyim şəxsiyyət sözünə isə mən belə bir açıqlama verərdim; Qəhrəmanlıq - an söhbəti, şəxsiyyət isə - çətin günlər zamanıdır. Çətin günlərin qəhrəmanı kimi həmişə xalqın yanındasınız. Dədə Qorqud qəhrəmanlarının zamanlarından üzü bəri el harayına duran igidlərin, hünər insanlarının Vətən, millət sevgisi kredosu bu gün sizin və sizin kimi şəxsiyyətlərin dilində belə səslənir; - "Çal qılıncını qardaş, mən çatdım!". İndi fərqi görün: - namərdin qılıcı hara, mərdin Qılıncı hara?!.

Neçə - neçə yuxusuz gecələrin, illərin ağrılı - əzablı, əziyyəti hesabına araya - ərsəyə gətirdiyiniz bu tədqiqat işinizin folklorşünaslıq elmimizə, yerimiz - yurdumuz, adət - ənənələrimiz barəsində ilk mənbə olan "Lənkəran keçmişdə" əsərinin dəyəri və qiyməti ölçüyəgəlməzdir. Yalçın qayalıqlarda kol - kos ya ola, ya olmaya, uca dağ başının o sərt iqlimində, demək olar ki, heç nə bitmir, əgər orada nəsə bitibsə, deməli o, təbiətin möcüzələrindəndir. XIX əsrdə qələmə alınan, 100 ildən artıq zaman fasiləsi ilə bizdən ayrılan, "Uca dağ başında kola bənzəyən" (Koroğlu), keçmişimizdən danışan, Talışdan yazan bu əsərə, ümumiyyətlə Teymur bəy Bayraməlibəyovun folklor fəaliyyətinə həsr etdiyiniz elmi tədqiqat işiniz həm bu torpağın oğlu kimi, həm də atam Bəbir Xanverdi oğlunun unudulmaz xatirəsinə ithaf edilən bir kitab kimi mənim üçün ayrıca özəlliyə malikdir. Siz Allahdan sonra birinci adamsınız ki, bu həyətə, evimizə öz kitabınızla daxil olmusunuz. İndi hamımızın ayrı - ayrılıqda öz evi var, lakin yenə sənin evinə " öz evimiz" deyirik, belə bir düşüncənin bizdə formalaşması yəqinliyində, həkəm və möhkəmliyində, eyni zamanda Ziba xanımın sadəliyi, böyüklüyü və səmimiyyəti dayanır. Yazıda işlətdiyim bəzi sözlər anamın mənə öyrətdikləridir, onu nə məktəb, nə də kitabdan öyrənməmişəm, demək olar ki, anamla mən bu yazının həmmüəllifiyik. Ay üzünə salavat çevir; "Allahımmə səlli əla Mühəmməd və ali Mühəmməd" de deyərdi. Soba qırağında, təndir başında gündüzə, gecəyə, oda, suya, çörəyə andı vardı. Qaranlıq düşəndə dağlar "böyüyür", deyirlər , andların da istəklərə çatmaq yolu olur.

... Yuxarıda qeyd olunduğu kimi insanların daşa, torpağa, suya və s. oxşarlıqları olur. Lənkəran təbiətinin bir parçası olan Yədulla müəllimin Nisan yağışına bənzərliyi ondandır ki, o, bir ziyalı kimi qəlblərə həmişə nur saçır. Belə insanlar göylərin qapıları anaların dualarına açıq olduğu zaman dünyaya gəlirlər. Məhəbbəti həyatın cövhəri bilirlər. Qəlbləri də eşqləri kimi həmişə mərdanə olur. Həyata baxışlarında "Eşqsiz ey insan, nədir dəyərin?" (N. Gəncəvi), " ...eşq olmasa, varlıq bütün əfsanədir" (Ə. Vahid) düşüncəsi yaşayırlar. Alınlarının təri əllərini zəhmətə, xeyir əmələ öyrətmələrindəndir. Dini və dünyəvi fəaliyyətlərində İslamın qüdrət gücü (Kitab) onlarla olur. Görkəmli şairimiz M. Arazın təbiri ilə desək:- "Əl dəydi, çaxmaq daşı"na dönən, qədim yunan mifoloji düşüncəsinin qəhrəmanı Prometey kimi xeyirxah olan bu insanlar qəlblərində odu keçənlərə sinələrindən od paylamaq qüdrətindədirlər. Sözün məcazi deyil, məhz müstəqim, düz, birbaşa mənalarında filologiya elmləri doktoru, professor Y. Ağazadə 50 ildir ki, gözünün nurunu, qəlbinin odunu "Siratül - müstəqim"də , insanlığın dəvət olunduğu doğru yolda əritməkdədir. Əlində qələm (Günəş), alnında mərdlik nişanəsi (bəsirət - ürəyin görən gözü , möhür yeri) gəzdirən, Azərbaycanın görkəmli ziyalısı və xalqının taleyüklü məsələlərinin həllində öncül ictimai xadimlərindən biri olan Yədulla Bəbir oğlu Ağazadəyə 70 yaşınız mübarək olsun! - diləyi ilə bu yazımı bitirir və qardaşıma möhkəm can sağlığı arzulayıram.

***2021***



*Əli* Bəbiroğlu

***filoloq-tədqiqatçı***